Azərbaycan Respublikası
Ekologiya və Təbii Sərvətlər Nazirliyinin
"06 " iyul 2011-ci il tarixli
406/ü nömrəli əmri ilə təsdiq edilmişdir

# Milli Parkların yüksək dağlıq ərazilərinə turistlərin giriş-çıxışının tənzimlənməsi və onlara bələdçi xidmətinin göstərilməsi

# QAYDALARI

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikası Qanununun və Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 14 iyul tarixli 531 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının milli parklarının ümumi Əsasnaməsi"nin müddəalarına əsasən Milli Parkların turizm və rekreasiya, habelə, turistlərə və başqalarına xidmət göstərilən zonalarında müvafiq xidmət işlərinin operativ və səmərəli təşkili məqsədilə və Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 2006-cı il 27 iyun tarixli 346/ü nömrəli əmri ilə təsdiq edilmiş «Azərbaycan Respublikasının Milli Parklarında ekoturizm fəaliyyətinin təşkili, mövcud problemlər və inkişaf perspektivlərinə dair Milli Konsepsiya» əsasında hazırlanmışdır.

1.2. Bu Qaydalar Milli Parkların yüksək dağlıq ərazilərinə turistlərin giriş-çıxışının tənzimlənməsi və onlara bələdçi xidmətinin göstərilməsi qaydalarını müəyyən edir.

1.3. Milli Parkların yüksək dağlıq ərazilərinə səfər etmək istəyən turistlər Milli Parklara daxil olarkən «Milli Parkların ərazisindən istifadənin nümunəvi Qaydaları» ilə tanış olmalı, orada müəyyən olunmuş tələblərə, şərtlərə və normalara riayət etməlidirlər.

## 2. Milli Parkların yüksək dağlıq ərazilərinə səfər edən turistlərin qeydiyyatı

2.1. Milli Parkların yüksək dağlıq ərazilərinə səfər edən turistlər Milli Parkın müvafiq giriş və çıxış məntəqələrində qeydiyyatdan keçməlidirlər.

2.2. Qanunverijiliklə müəyyən olunmuş hüquqi hərəkətləri həyata keçirdikdən və zəruri sənədləri təqdim etdikdən sonra turistlərin Milli Parkın müəyyən olunmuş ərazisində nəzərdə tutulan hərəkətinə və fəaliyyətinə icazə verilir.

2.3. Milli Parkların yüksək dağlıq ərazilərinə və həmin sahələrdəki Azərbaycan Respublikasının sərhəd zonalarına düşən ərazilərə səfər edən turistlər Milli Parka giriş zamanı aşağıdakı sənədləri təqdim etməlidirlər:

2.3.1. şəxsiyyəti təsdiq edən sənəd (əsli);

2.3.2. xarici vətəndaşın Azərbaycan Respublikasında etibarlılıq müddəti bitməmiş vizası (surəti);

2.3.3. ərazi Azərbaycan Respublikasının dövlət sərhəddinə aid sahədə olduqda Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətindən icazə məktubu (əsli);

2.3.4. sığorta haqqında sənəd (surəti);

2.3.5. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin aidiyyəti qurumunun icazə məktubu;

2.3.6. iltizamnamə (giriş postlarında və ya müvafiq idarə və məntəqədə turist tərəfindən doldurulur).

2.4. Milli Parkların Azərbaycan Respublikasının dövlət sərhəddi zonalarına düşən ərazilərinə turistlərin səfəri Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin aidiyyəti qurumunun yazılı müraciətinə (razılığına) müvafiq olaraq Dövlət Sərhəd Xidməti tərəfindən verilən icazə sənədi əsasında həyata keçirilir.

2.5. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin aidiyyəti qurumunun razılıq məktubunda qeyd olunan müddət ərzində Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətindən müvafiq icazə alınmadıqda həmin razılıq hüquqi qüvvəsini itirmiş hesab olunur və Milli Parklar tərəfindən qəbul olunmur.

2.6. Milli Parkların yüksək dağlıq ərazilərinə səfər edən turistlər müvafiq ödəmələri Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 2006-cı il 27 iyun tarixli 346/ü nömrəli əmri ilə təsdiq olunmuş «Milli Parkların ərazisində ekoturizm xidmətlərinin göstərilməsinə dair Təlimat»a uyğun olaraq həyata keçirirlər.

2.7. Milli Parkların turistləri qəbul edən bütün girişlərində gün ərzində 24 saat fəaliyyət göstərən, kompüterlərlə təjhiz olunmuş postların fəaliyyəti təmin olunur. Bu postlardakı əməkdaşlar turistlərə giriş bileti verməkdən əlavə, daxil olan turistlərdən zəruri məlumatları almalı (müvafiq təsdiqediji sənədlər təqdim olunmaqla), onların və onlara məxsus nəqliyyat vasitələrinin əraziyə giriş və çıxış saatlarını qeyd etməli, parkdaxili davranış qaydalarına əməl edilib-edilməməsi barədə qeydiyyat aparmalı və turistlərdən iltizamnamələri qəbul etməlidirlər.

2.8. Fərdi və ya qrup halında turistlərin Milli Parkların yüksək dağlıq ərazilərinə səfəri yalnız Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Bioloci Müxtəlifliyin Qorunması və Xüsusi Mühafizə Olunan Təbiət Ərazilərinin İnkişafı Departamentində müvafiq qaydada akkreditasiyadan keçərək Milli Parklarda bələdçi xidməti göstərmək hüququna malik olan şəxslərin (müvafiq sertifikat almış fiziki şəxslər və ya xidmət müqaviləsi bağlanmış hüquqi şəxslər) müşayiəti ilə həyata keçirilir.

## 3. Bələdçilərin fəaliyyəti üzrə qaydalar

3.1. Bələdçilər aşağıdakı tələblərə cavab verməli və onların əsas fəaliyyət istiqamətləri aşağıdakılardır:

3.1.1. Milli Park və onun ətraf əraziləri barədə geniş təbii, mədəni, tarixi və etnoqrafik məlumatlara malik olmalı;

3.1.2. marşrutları yaxşı bilməli və dağ şəraitində tələblərə uyğun bacarıqlara malik olmalı;

3.1.3. qonaqpərvərlik və səmimiyyət hissləri üzərində işlərini təşkil etməli;

3.1.4. ərazidə istiqamət və jəhətləri müəyyən etmək bajarığına malik olmalı (bununla əlaqədar müvafiq cihazlarla işləməyi bacarmalı);

3.1.5. meşədə, dağda, su hövzələrində və s. xüsusi ekstremal şəraitlərdə davranış qaydalarını bilməli;

3.1.6. həkiməqədər ilk tibbi yardım göstərməyi bajarmalı (minimum tibbi hazırlığı, tibbi ləvazimatı və ilkin tibbi yardım üçün müvafiq çantası olmalıdır);

3.1.7. turist auditoriyasından asılı olaraq müvafiq xarici dilləri bilməlidir.

3.2. Bələdçilər Milli Parkların ərazilərinə gəzintilərini təşkil etməzdən əvvəl turistləri:

3.2.1. müvafiq ərazinin marşrutunun sxemi ilə təchiz etməli;

3.2..2. ərazinin xüsusiyyətləri və texniki təhlükəsizlik qaydalarına dair təlimatlandırmalı və çöl şəraitindəki çətinlikləri aradan qaldırmağa hazırlamalı;

3.2.3. lazımi hallarda turistlərin müəyyən bajarıqlarını (at sürmə, dağa dırmanma və s.) yoxlamalı;

3.2.4. marşrutdan və ya hava şəraitindən asılı olaraq, zərurət yarandıqda əvvəljədən xüsusi (ən vacib) inventar və predmetlərlə təmin etməlidir.

3.3. Turistlər səfər müddəti ərzində onları müşayiət edən bələdçinin və ərazidə xidmətdə olan Milli Park əməkdaşlarının göstəriş və tələblərinə şərtsiz əməl etməlidirlər. Bu göstəriş və tələblərə vaxtında və düzgün əməl etməyən turistlər Milli Parkda «arzu edilməz şəxs» (persona non-qrata) elan olunaraq onların gələcəkdə bir daha Milli Parkların ərazilərinə səyahət (səfər) etmək imkanları məhdudlaşdırılır.

3.4. Qrup halında dağ marşrutuna çıxmazdan əvvəl bələdçi qrupa daxil olan ekoturistlərin müvafiq hazırlıqlarını yoxlamalıdır.

3.5. Uzunmüddətli marşruta çıxan ekoturistlər ehtiyat yemək məhsullarını özləri ilə götürməli, onların getmə və qayıtma vaxtları müəyyənləşdirilməli, bu barədə bələdçi tərəfindən qeydiyyat curnalında müvafiq qeydlər edilməlidir.

3.6. Marşrut zamanı istıfadə olunajaq alət və cihazlar saz vəzıyyətdə olmalı və kütləvi yürüşlərə çıxan turist qrupları ixtisaslaşdırılmış həkim tərəfindən müşayiət edilməlidir.

3.7. Yüksək dağlıq ərazilərdə yol marşrutundan kənara çıxmaq qəti qadağan edilməlidir. Burada bütün hərəkətlər razılaşdırılmış marşrut üzrə həyata keçirilməli, ərazidə istiqamətləndirici nişanların, texnoloji xəritələrin göstərişlərinə təhlükəsizlik nöqteyi-nəzərindən dönmədən əməl olunmalı, çadırların, kempinqlərin qurulması, bərk və məişət tullantılarının atılması yalnız Milli Park tərəfindən müəyyən olunmuş xüsusi yerlərdə həyata keçirilməlidir.

3.8. Əgər turist qrupu marşrutda 4 saatdan artıq əlaqəyə çıxmazsa və ya gecikərsə, onda Milli Parkın rəhbərliyi tərəfindən axtarış-xilasetmə işlərinə başlanılması barədə qərar qəbul olunur.

3.9. Axtarış-xilasetmə işləri nəticəsində turist qrupunun yubanmasının səhlənkarlıq üzündən və ya razılaşdırılmış mövjud marşrutdan kənarlaşma səbəbindən baş verməsi müəyyən olunarsa, axtarış-xilasetmə işlərinə sərf olunan vəsaitin məbləği təqsirkarlar tərəfindən ödənilir və onlara bu Qaydaların 13-cü bəndi tətbiq olunur.

## 4. Məsuliyyət

4.1. Turistlər xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında qanunvericiliyin tələblərinin pozulması hallarında Milli Parkın təbiət komplekslərinə dəymiş ziyana görə təqsirli şəxslər olaraq Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun qaydada mülki, inzibati və ya cinayət məsuliyyəti daşıyırlar.

4.2. Turistlərin hərəkətləri nətijəsində bu Qaydaların, Nazirliyin 2006-cı il 27 iyun tarixli 346/ü nömrəli əmri ilə təsdiq edilmiş «Milli Parkların ərazisindən istifadənin nümunəvi Qaydaları»nın pozulması zamanı və fors-major hallarında onların əmlakına və səhhətinə dəymiş hər hansı ziyana görə Milli Park məsuliyyət daşımır.